# İctimai fikir

## Ona televiziya qədər güclü təsir edən ikinci bir vasitə yoxdur



**Tarixi şansı itirməmək məharəti əsl filosoflara xas başlıca xüsusiyyətdir. Vaxtında söylənilmiş fikir də məqamında açılan atəş kimidir: hədəf ondan yayına bilməz! Hədəfə düzgün, dəqiq ünvanlanmış fikir şimşək kimi bir anda qaranlıqları aydınladır, bahar nəsimi kimi cəmiyyətin ruhunu təzələyir, ürəklərə rahatlıq, zehinlərə əminlik gətirir, nigaran baxışlara su çiləyir.**

**Təsadüfi deyildir ki, bu məqalənin yazıldığı gündən xeyli vaxt keçsə də onun ictimai əhəmiyyətini səciyyələndirən cəhətlər ayrı-ayrı alimlər, ziyalılar, elm və mədəniyyət xadimləri tərəfindən yüksək dəyərləndirilir.**

***Bu mənada, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin rektoru, professor Timuçin Əfəndiyevin fikirləri xüsusi maraq doğurur:***

- Prezident Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyevin "Azərbaycanın efir məkanı: problemlər və vəzifələr" ("Azərbaycan" qəzeti, 2 oktyabr 2009-cu il) məqaləsi Azərbaycanın efir reallıqlarını dəqiq nəzərə alan, cəmiyyəti xoş bir həyəcana gətirən, ictimai fikri silkələyən, milli-mənəvi taleyimizlə bağlı həyəcan təbili çalan fəlsəfi- ictimai bir faktdır. Bu məqalənin tarixi-ictimai əhəmiyyətini səciyyələndirən bir neçə cəhət var:

Birincisi, məqalə çox vaxtında yazılıb. Hörmətli R.Mehdiyev qazan kimi qaynayan ictimai fikir təlatümünün qanadını açdı və sübut etdi ki, Azərbaycanın güclü dövləti var və o, ölkədə bütün sahələrdə gedən prosesləri diqqətlə müşahidə edir. Sadəcə, hər şeyin öz vaxtı var.

İkincisi, bu məqalə həm dövlət xadimi, həm də filosof, alim-akademik tərəfindən yazılıb. Burada həm dövlətçilik təfəkkürü, həm də vətəndaş bir ziyalının milli təəssübkeşliyi ifadə olunub.

Üçüncüsü, məqalə "Televiziya və radio yayımı haqqında" dövlət qanununun baza prinsipləri zəminində yazılıb. Faktiki olaraq, bu qanunu ayağa qaldıran güclü bir faktdır.

Dördüncüsü, bu məqalə akademik R.Mehdiyevin uzun illər üzərində çalışdığı, ulu öndər Heydər Əliyev ideyalarına güvənərək işləyib hazırladığı Azərbaycançılıq konsepsiyasının tərkib hissəsidir. Akademik vaxtilə öz konsepsiyasını dərin fəlsəfi məzmunda ümumiləşdirərək yazırdı:"Azərbaycançılıq" xalqımızın çox əzab-əziyyətlə nail olduğu tarixi sərvətdir. O, real müstəqilliyə nail olmaq, bölünməz Azərbaycanı qoruyub saxlamaq və möhkəmləndirmək üçün vasitədir. Bu gün azərbaycançılıq milli həyatın, konvensiyaların harmoniyasını çoxəsrlik ənənəsi, bölgədə yaşayan bütün millətlərin və etnik qrupların qardaşlığı, qarşılıqlı əlaqə və təsirinin tarixi, onların ümumi taleyi və müstəqil Azərbaycanın bütövlüyü uğrunda birgə mübarizəsinin tarixi təcrübəsidir".

Məhz bu kontekstdə məqalədə ən çox narahatlıq doğuran fikir vahid ideoloji məcranın itirilməsi problemidir. Fikrimizcə, Respublikamızda nəinki hər ali məktəbdə, həmçinin hər bir kollecdə və orta ümumtəhsil məktəbində vətən, xalq, millət, dövlət, onun tarixi və etnogenezi barəsində hər müəllim bu cür danışır, eləcə də hər qəzet öz redaktorunun səviyyəsinə, hər televiziya öz sahibinin zövqünə (istəyinə) uyğun məlumat verir.

Bu gün Azərbaycanda ümummilli ictimai mühit yaradılmasına ciddi ehtiyac var. Bu da yalnız hamının qəbul etdiyi vahid milli və dövlətçilik ideologiyası zəminində mümkündür.

R.Mehdiyevin məqaləsinin konseptual əsasında belə bir başlıca fikir dayanır ki, efirin (həm televiziya, həm də radionun) maarifləndirici, məlumatlandırıcı və əyləncə funksiyaları arasında ciddi disbalans yaranıb.

Akademik R. Mehdiyev son dövrdə Prezident İlham Əliyevin 2008-ci il 31 iyun tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında KİV-lərin inkişafına dövlət dəstəyi konsepsiyasının" KİV-lərin inkişafı üçün əhəmiyyətli bir sənəd olduğunu diqqətə çəkir.

Məqalədə çox haqlı olaraq göstərilir ki, televiziya kanallarında səriştəsiz, qeyri-professional aparıcıların mövcudluğu problemi də aktual bir məsələ kimi qoyulur. Bundan əlavə Azərbaycanın teleradio məkanında prodakşnların fəaliyyətinin zəif olması, xarici filmlərin həddindən artıq nöqsanlı dublyajı, uşaq və yeniyetmələrdə, gənc nəsildə elmə və təhsilə maraq oyada bilən, onun intellektual səviyyəsinin yüksəldilməsinə xidmət edən verilişlərin az olması məqalədə geniş təhlil və tənqid hədəfinə çevrilir.

Qeyd edək ki, efirdə (eləcə də ümumən media-da) maarifləndirmə missiyasını alimlər, yazıçılar, müəllimlər, məlumatlandırma işini jurnalistlər, əyləncə funksiyasını incəsənət adamları həyata keçirir. R.Mehdiyev kifayət qədər dəqiq və bir o qədər də sərtliklə deyir: bu münasibətlərdə ciddi balans yaranıb. Kimin xeyrinə? Hörmətli akademik böyük ziyalı təəssübkeşliyi ilə bu sualın da cavabını verir. "Televiziya və radio yayımı haqqında qanun"un 3-cü maddəsində göstərilən "milli-mənəvi dəyərlərin qorunması, peşə etikasına və əxlaq normalarına riayət olunması" tələbləri pozulur.

Efir vaxtı mentalitetimiz yad verilişlərlə doldurulur. Xüsusi qeyd edilməlidir ki, bu gün Azərbaycan televiziya kanallarında milli mentalitetimizə yad, mənəvi və əxlaqi dəyərlərimizə zidd film, serial və kliplər çoxluq təşkil edir". Bu sətirlər hər bir qeyrətli Azərbaycan vətəndaşının ürəyindən tikan çıxaran, xalqımızın düşmənlərinin gözünə ox kimi sancılan həqiqəti əks etdirir.

Bir ali məktəb rektoru kimi düşünürəm ki, akademik R.Mehdiyevin məqaləsi radio və televiziya işçiləri üçün proqram xarakterli bir sənəddir. Bu sənəddə respublikamızın efir məkanının mənzərəsi tam aydın şəkildə təhlil edilmiş, efirimizin müasir, yüksək səviyyəli tələblərə cavab verə bilən bir məkana çevrilməsi üçün bütün vəzifələr aydınlıqla göstərilmişdir.

Bu problem uzun müddətdir ki, bütün ziyalıları düşündürürdü. Mən bir ziyalı kimi 30 yanvar 2008-ci ildə "525-ci qəzet"ə verdiyim müsahibədə kanallarda gedən zövqsüz, bəsit, səviyyəsiz, mənəviyyatımıza yad olan verilişlərə öz münasibətimi bildirmişdim. Bu gün mən akademik R.Mehdiyevin bu məqaləsinin Azərbaycan radio və teleməkanında böyük bir dönüş yaradacağına, vaxtilə kanallarımızda gedən keyfiyyətli, məzmunlu, konsepsiyalı verilişlərin bərpa ediləcəyinə, müasir dövrün və Azərbaycan xalqının zəngin milli-mənəvi dəyərlərinə layiq verilişlərin hazırlanacağına inanıram...

***ADMİU-nun tədris və tərbiyə işləri üzrə prorektoru, professor P.Sadıqovun təkliflərini də alqışlamaq lazımdır. Fikrimizcə, onların həyata keçirilməsi səmərəli olardı.***

1. Akademik Ramiz Mehdiyevin bu məqaləsi ilə əlaqədar olaraq təklif edirəm ki, telekanallarda Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin müəllim və tələbələrinin hazırladığı yüksək professional proqramların (teatr və balet tamaşaları, filmlər, televiziya verilişləri, sərgilər və



M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası

müxtəlif mövzulara həsr olunmuş ədəbi-bədii veriliş) nümayişi üçün şərait yaradılsın.

2. Universitetin beynəlxalq tədbirlərdə qazandığı nailiyyətlər telekanallar vasitəsilə təbliğ olunsun və nümayiş etdirilsin.

3. Telekanallarda diktor probleminin həllinə kömək məqsədilə universitetin "Səhnə danışığı" kafedrasında təkmilləşmə kursları təşkil edilsin.

4. Telekanallarda "Tələbə dünyası" adlı silsilə verilişlər hazırlansın və ali məktəblərin həyatı işıqlandırılsın...

***Tanınmış rejissor və pedaqoq, professor Ağakişi Kazımov yaranmış vəziyyəti aşağıdakı kimi dəyərləndirir:***

- Bu gün bu problem demokratik şəraitdə yaşayan xalqımız üçün son dərəcə aktualdır. Biz real şəkildə respublikamızın müvəffəqiyyətlə, inamla dünyaya çıxması ilə yanaşı, həm də bəzi sahələrdə olduğu kimi Azərbaycan efir məkanında da nəsil dəyişməsi ilə üzləşmişik.

Problem səriştəsizlikdən və demokratiyanın bəxş etdiyi imkanlardan səmərəli istifadə edilməməsindən irəli gəlir. Möhtərəm akademik həyəcan təbilini vaxtında çalıb. Müəllif çox haqlı olaraq qeyd edir ki, bu gün tamaşaçıları narahat edən ümdə məsələlərdən biri "televiziya və radio kanallarında aşağı səviyyəli, keyfiyyətsiz, əyləncə və şou-biznes xarakterli verilişlərin çoxalmasıdır".

Bəli, bu kanaldan o kanala keçərək öz bayağı mahnıları ilə tamaşaçılarımızın psixologiyasını şikəst edən proqramlar şüurumuzu, zövqümüzü, düşüncə tərzimizi bayağılaşdırır.

***Teatrşünas-tənqidçi Məryəm Əlizadə məqaləyə öz münasibətini bu cür səciyyələndirir:***

- Akademik Ramiz Mehdiyevin məqaləsi aydın göstərdi ki, onun qaldırdığı problem müstəsna dərəcədə böyük əhəmiyyət kəsb edir. Həlli qaçılmaz olan bu problemin aradan qaldırılması sistemli həyata keçirilməlidir.

Onu da qeyd edək ki, Azərbaycanın efir məkanının mövcud durumu ilə bağlı belə sanballı məqaləyə çoxdan ehtiyac var idi, çünki istisnasız bütün telekanallarda yayımlanan proqramların keyfiyyətinə və tematikasına yenidən nəzər salmaq vaxtı yetişib. Aydın məsələdir ki, sözügedən problem yalnız telekanalların problemi deyil.

Görkəmli akademik Ramiz Mehdiyevin qaldırdığı problem, əslində, bütövlükdə cəmiyyətimizdən və xüsusilə ziyalılarımızdan məsuliyyətli yanaşma tələb edən ictimai-siyasi, mədəni, sosial və psixoloji məsələdir.

***Neçə-neçə maraqlı əsərlərin müəllifi, dramaturq Əli Əmirli də həmkarlarının fikirlərini bölüşür, məqalədə qaldırılan müddəaların həyata keçirilməsinin televiziyalarımızın işinə müsbət təsir edəcəyinə inandığını bildirir:***

- Akademik Ramiz Mehdiyevin televiziyalarımızdakı hazırkı vəziyyət haqqında proqram xarakterli məqaləsi həyəcan təbili kimi səsləndi. Bu həyəcana demək olar ki, ölkə ziyalılarının əksəriyyəti qoşuldu. Çünki, məqalədəki əsaslı arqumentlərə söykənən tənqidi fikirlər hamımızın ürəyindən xəbər verir. Bizim də bu məqalənin müzakirəsinə qoşulduğumuz təsadüfi deyil.

Ölkə mədəniyyətinin hər bir sahəsi üçün mütəxəssis hazırlayan unikal ali təhsil müəssisəsi kimi biz də illərdir ölkə teleməkanında baş verən "bezpredel"i görürük, auditoriya səviyyəsində, ümumi söhbət və müzakirələrdə, diskussiyalarda, mətbuat səhifələrində narahatlığımızı, narazılığımızı, tənqidi fikirlərimizi bildiririk. Amma çox təəssüf ki, biz özümüz deyir, özümüz də eşidirik.

Ölkə rəhbərliyinin əsas simalarından birinin həyəcan təbili çalması isə artıq başqa keyfiyyət, başqa səviyyədir, özü də təsirli səviyyə. Yuxarıda deyilənləri ümumiləşdirərək qeyd etməliyik ki, bu gün Azərbaycanın efir məkanında, ayrı-ayrı kanallarda yüksək keyfiyyətinə, ictimai əhəmiyyətinə görə fərqlənən verilişlər də az deyil.

**Təbii ki, informasiya və maarifləndirmə xarakterli proqramlar tamaşaçılarını düşündürməyi, istiqamətləndirməyi bacarır. Bunu nəzərə alaraq televiziyalarımız bu cür maraqlı verilişlərin sayını artırmağa, ziyalılarımızın irad və təkliflərindən yararlanmağa səy göstərməlidirlər...**

**Tural ƏFƏNDİYEV,**
*fəlsəfə doktoru*

## Ədəbiyyat

1. R.Mehdiyev. Azərbaycanın efir məkanı: problemlər və vəzifələr. "Azərbaycan" qəzeti, 2 oktyabr 2009-cu il.
2. B.Niftəliyev. Efir məkanında təzə ünvanlar. "Mədəni-maarif işi" jurnalı, 2011-ci il, №3.
3. E.Quliyev. Televiziya: nəzəriyyə, inkişaf meylləri. Bakı, 2004.